# Özbaşına yoluxma yoxdur, uğursuzluq yoxdur və mən fə'li sevirəm. Deyildi : Fə'l nədir? Dedi: "Yaxşı söz

Ənəs bin Malikdən (Allah ondan razı olsun) Peyğəmbərin (Allahın salavatı və salamı onun üzərinə olsun) belə söylədiyi rəvayət edilir: Özbaşına yoluxma yoxdur, uğursuzluq yoxdur və mən fə'li sevirəm. Deyildi : Fə'l nədir? Dedi: "Yaxşı söz".
[Səhih] [Müttəfəqun aleyhi(əl-Buxari və Musliminsəhih gördüyü hədislər)]

Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) xəbər verir ki, cahiliyyə dönəmi insanlarının bir xəstəliyin Allahın təqdiri olmadan öz-özünə başqasına keçdiyinə inandıqları yoluxma batildir. Uğursuzluğa inanmaq da batildir. O quşlara, heyvanlara, əlillərə, rəqəmlərə, günlərə və səsli və ya görünən digər şeylərə bağlanılan bədbinlik inancıdır. O, quşu yalnız İslamdan əvvəlki cahiliyyə dövründə məşhur olduğu üçün qeyd etdi. O zaman insanlar səfər, ticarət və ya başqa bir işə başlamaq istədikdə, quşu havaya buraxardılar. Və əgər quş sağa uçardısa, nikbinliyə düşər və istədikləri işə davam edərdilər. Yox , əgər sola uçardısa, bədbinliyə inanar və istədikləri o işə başlamazdılar. Sonra O (Allahın salavatı və salamı onun üzərinə olsun) insanın eşitdiyi xoş sözdən dolayı başına gələn fərəh və sevinci xoşladığını və bu şeyin, onun Rəbbi haqqında gözəl düşünməsinə səbəb olduğunu dedi.